# Yeni inkişaf strategiyası uğurla həyata keçirilir

***“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda bildirilir ki, yeni sosial-iqtisadi inkişaf modelinin reallaşdırılması üçün ölkədə zəruri iqtisadi resurslar və müasir infrastruktur bazası mövcuddur. Strateji mərhələdə sosial-iqtisadi inkişaf modelinin əvvəlki dövrlərdə əldə edilən nailiyyətlərə əsaslanmaqla reallaşdırılacağı nəzərdə tutulur. Beynəlxalq nüfuza malik güclü lider, çətin dövrlərdə yüksək dövlət və vətəndaş həmrəyliyi, yeniliyə açıq və biliyi hər şeydən üstün tutan cəmiyyət, eləcə də uzun illər ərzində formalaşan yüksək iqtisadi potensial yeni milli sosial-iqtisadi inkişaf modelinin uğurla həyata keçirilməsinin təminatı kimi qəbul edilir.***



Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında 22 iyul 2022-ci il tarixli sərəncamı da qarşıya qoyulan vəzifələrin həyata keçirilməsinə dəstək məqsədi daşıyır. Sənəddə həmçinin respublikamızın postpandemiya və postkonflikt dövründə 2022–2030-cu illəri əhatə edən keyfiyyətcə yeni strateji inkişaf mərhələsinə daxil olduğu vurğulanır: “Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir”.

Qlobal iqtisadiyyatda baş verən mənfi meyillərə baxmayaraq, cari ilin birinci yarısında ölkədə yüksək iqtisadi göstəricilərin əldə edilməsi də həmin strateji mərhələyə uğurla start verildiyini təsdiqləyib. Belə ki, hesabat dövründə ümumi daxili məhsulun (ÜDM) strukturunda neft-qaz və qeyri-neft-qaz sektorlarının payı bərabərləşib, aparılmış təhlillər iqtisadi artımın qeyri-neft-qaz sahələri hesabına təmin olunduğunu deməyə əsas verib.

Burada yeni inkişaf strategiyasının uğurla həyata keçirilməsi ilə bağlı bir məqamı da vurğulamaq istərdik. Belə ki, Frederick S. Pardee Mərkəzinin araşdırmasına əsasən, Azərbaycanın yerləşdiyi coğrafi bölgədə iqtisadi artım tempi 2,2 faizi keçmədiyi təqdirdə davamlı inkişaf məqsədlərinə nail olunmuş hesab edilmir. Azərbaycan iqtisadiyyatında isə iqtisadi artım tempi 2021-ci ildə 5,6 faiz olmaqla, 2022-ci ilin ilk yarısında 6,2 faizə yüksəlib. Həmçinin cari ilin ilk yarısında qeyri-neft iqtisadiyyatının artım tempi 9,6 faizə çatıb.

Dövlət borcunun idarə edilməsi də dövlətin əsas prioritet sahələrindən biri kimi diqqətdə saxlanılıb. Həyata keçirilən tədbirlərin nəticəsində 2022-ci il iyulun 1-nə olan rəqəmlərə əsasən, birbaşa xarici dövlət borcu ÜDM-in 10,7 faizini təşkil edib.

Azərbaycan Prezidenti cari ilin ilk yarısının yekunlarına dair müşavirədə də ölkəmizin xarici dövlət borcu ilə bağlı mövcud vəziyyətinə diqqət yetirərək deyib: “Mən bir neçə il bundan əvvəl vəzifə qoymuşdum ki, xarici borcumuzu ümumi daxili məhsulun 10 faizinə endirək. Bu il iyulun 1-də mənə verilən rəqəmlərə görə, xarici borc ümumi daxili məhsulun 10,7 faizini təşkil edir. Nə üçün? Birinci növbədə, kreditlər almırıq və əvvəlcədən alınmış kreditləri qaytarırıq. Tam almırıq deyə bilmərəm, amma əvvəldən alınmış kreditlərin davamı indi gəlir. Amma yeni kredit almırıq, qaytarırıq. İkincisi, iqtisadiyyat artıb və ümumi daxili məhsul artdıqca təbii ki, o nisbət də, borcun nisbəti də azalır”.

Ölkəmizdə həyata keçirilən düzgün, uzaqgörən iqtisadi strategiyanın məntiqi nəticəsidir ki, bu il iyulun 1-nə ümumi dövlət borcu ÜDM-in 14,7 faizini, o cümlədən xarici dövlət borcu ÜDM-in 11,7 faizini, daxili dövlət borcu isə ÜDM-in 3 faizini təşkil edib. Xarici dövlət borcu 384,7 milyon manat azalıb.

Bütün bu uğurlar hökumətin dövlət borcu idarəçiliyi strategiyasının uğurla reallaşdırılmasından xəbər verir. Ölkə rəhbəri bununla bağlı deyib: “Xarici dövlət borcu ilə bağlı bizdən daha yaxşı nəticəsi olan ölkələrin bəziləri o ölkələrdir ki, onlara, ümumiyyətlə, xaricdən heç bir kredit verilmir. Ona görə də onların yüksək pillədə olması əlbəttə ki, obyektiv mənzərəni əks etdirmir. Beləliklə, biz dünya miqyasında xarici borcun aşağı səviyyəsinə görə qabaqcıl yerdəyik. Bunu bir daha demək istəyirəm, mən hökumət qarşısında vəzifə qoymuşam ki, biz xarici dövlət borcumuzu ildən-ilə azaldaq və gələn ilin büdcəsində bu, nəzərdə tutulur”.

Onu da qeyd edək ki, 2018-ci il avqustun 24-də Prezident İlham Əliyev “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Həmin strategiyanın əsas məqsədi qlobal iqtisadiyyatda, habelə maliyyə bazarında baş verən proseslər fonunda ölkənin maliyyə dayanıqlılığının daha da gücləndirilməsinə, dövlət borcalmalarında səmərəliliyin artırılmasına, qarşıda duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla bu sahədə risklərin səmərəli idarə edilməsi, eyni zamanda, nəzarət mexanizminin təkmilləşdirilməsinə nail olmaqdır.

Cari ilin ilk yarısında iqtisadi artım ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,2 faizə bərabər olub. Qeyri-neft-qaz sahələrinin 9,6 faizlik artımı fonunda neft-qaz sahələri üzrə cüzi artımın (0,2 faiz) qeydə alınması iqtisadi yüksəlişdə neft amilinin rolunu azaldıb.

ÜDM-in həm neft, həm də qeyri-neft sahələrində nominal artımların qeydə alınması isə dövlət büdcəsinin gəlirlərinin artımını şərtləndirib. Yeri gəlmişkən, dövlət büdcəsində 2022-ci il üçün daxili dövlət borclanmasının yuxarı həddi 1100 milyon manat, xarici dövlət borclanmasının yuxarı həddi 600 milyon manat, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi 800 milyon manat müəyyənləşdirilib.

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biri ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü il noyabrın 24-də imzaladığı “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” Fərmanı aqrar sektorda islahatların ikinci mərhələsinin başlanmasına start vermiş, eyni zamanda, ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin olunmasına və əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə xidmət etmişdir. Aqrar sektorda islahatların ikinci mərhələsinə başlamaqla, kənd təsərrüfatının inkişafında ən müasir, mütərəqqi metodlar tətbiq olunmuşdur. Görülən tədbirlər nəticəsində yerli istehsal potensialı güclənmiş və ərzaq məhsullarının rəqabətqabiliyyətliliyi yüksəlmişdir. Nəticədə ölkəmizin ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi də əsaslı şəkildə yaxşılaşmışdır. Belə ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi vaxt ət və süd məhsulları ilə ölkənin özünütəminetmə səviyyəsi 30-35 faiz təşkil edirdisə, 2020-ci ildə bu məhsullar üzrə özünütəminetmə səviyyəsi müvafiq olaraq 84,5 və 83,5 faizə qədər artmışdır. Həmin dövrdə ölkənin kartofa olan tələbatının ödənilməsində idxal mühüm paya sahib idisə, 2020-ci ildə kartofla özünütəminetmə səviyyəsi 90,6 faiz olmuşdur. Bütün növ tərəvəz ilə özünütəminetmə səviyyəsi 110,4 faiz, meyvə və giləmeyvə üzrə isə 116,3 faiz təşkil etmişdir.

Qarşıdakı illərdə ərzaqla özünütəminetmə səviyyəsi daha da yaxşılaşacaq. Şübhəsiz ki, uzun illər ərzində işğal altında qalan torpaqların azad olunması ölkənin ərzaqla özünütəminetmə səviyyəsinin artırılmasına töhfə verəcək.

Azərbaycanın ərzaq təhlükəsizliyi sahəsindəki nailiyyətləri nüfuzlu beynəlxalq qurumların hesabatlarında da əksini tapır. Belə ki, Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi (The Global Food Security Index) üzrə hesabata əsasən, Azərbaycanın ümumi ərzaq təhlükəsizliyi indeksində ardıcıl olaraq yüksəlmə müşahidə olunur. Hazırda da ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi üçün yeni institusional mexanizmlər yaradılır.

Ötən il ölkədə strateji əhəmiyyətli mallar üzrə daha effektiv təchizat zəncirinin formalaşdırılması, bu sahədə qabaqcıl tənzimləmə və idarəetmə təcrübəsinin tətbiqi, eləcə də daxili bazarın qısamüddətli mənfi təsirlərə davamlılığının artırılması üçün Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi təsis edilib. Azərbaycan Prezidentinin 2022-ci il 19 iyul tarixli “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Fərmanına əsasən isə ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, habelə ərzaqlıq buğda istehsalının təşkili məqsədilə yeni mexanizmlər yaradılıb.

Azərbaycan Prezidenti çıxışlarında özəl sektorun inkişafı məsələsinə də daim toxunaraq, son vaxtlar bu sahədə böyük uğurlar əldə edildiyini xatırladıb. Sahibkarlığın inkişafına prezidentlik fəaliyyətinin ilk günlərindən xüsusi önəm verdiyini qeyd edən ölkə rəhbəri həyata keçirilən tədbirlər nəticəsində ümumi daxili məhsulun əksər hissəsinin məhz özəl sektorda, qeyri-neft sahəsində istehsal olunduğunu vurğulayıb, indiki şəraitdə, xüsusilə postmüharibə dövründə özəl sektorun üzərinə daha böyük vəzifələr düşdüyünü deyib. Prezident İlham Əliyev bu məsələyə daim xüsusi diqqət yetirib və bununla bağlı müvafiq icra strukturlarına müəyyən zəruri tapşırıqlar verib.

Özəl bölməyə bu diqqət və qayğının nəticəsidir ki, cari ilin yanvar-avqust ayları ərzində sahibkarların 1732 investisiya layihəsinin maliyyələşdirilməsinə güzəştli kredit mexanizmi çərçivəsində 72,1 milyon manat güzəştli kredit verilib.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə layihələrin sayı 2,5 faiz, kreditləşmənin həcmi isə 49 faiz artıb.

Ümumiyyətlə, əldə edilən bütün sosial-iqtisadi uğurlar ölkə iqtisadiyyatının dinamik inkişafı, islahatların ardıcıl xarakter daşıması ilə bağlı olub. Hazırda ölkə iqtisadiyyatının dayanıqlığının şaxələndirilməsi və rəqabət qabiliyyətinin təmin edilməsi qarşıya iqtisadi islahatlar üzrə əsas vəzifə kimi qoyulub. Bu məqsədlə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional islahatların aparılması, dövlət tərəfindən sahibkarlara hərtərəfli dəstək verilməsi istiqamətlərində bir sıra mühüm qərarlar qəbul edilib. Bütün bunların sayəsində Azərbaycan son illər dünyanın ən sürətlə və dayanıqlı inkişaf edən ölkəsinə çevrilib.

***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 13 sentyabr.- S.4.